## Azərbaycan dili

1. Hansı nümunələrdə eyni hərf müxtəlif səsləri ifadə etmişdir?
1. kəpənək 2. zədələnmək
3. voleybol 4. tələskənlik
5. təkidlə
A) 1,2,3 B) 3,4,5 C) 1,3,4
D) 1,2,4 E) 2,4,5

2. Hansı sözün yazılışı və leksik mənası düzgün verilib?
A) süvenir – yadigarlıq hədiyyə
B) sinxron – bir-birinin ardınca baş verən
C) parolimpiya – əlillər arasında olimpiya oyunları
D) mesenat – himayədarlıq edən
E) meynə – üzüm salxımı

3. Klasteri tamamlayan sözləri müəyyənləşdirin.
kök + 2 leksik şəkilçi + + 2 qrammatik şəkilçi
1. ehkamçılıqdan
2. fərqləndirdim
3. dodaqlanmayan
4. damğalanmaqdan
5. calaqçıların
A) 1,3,5 B) 2,3,4 C) 1,2,4
D) 1,3,4 E) 2,4,5

4. Verilmiş sözlərin antonimləri hansı bənddə düzgün ardıcıllıqla verilmişdir?
*təkəbbürlü, aciz, adil, nikbin*
A) təvazökar, bacarıqlı, ədalətsiz, bədbin
B) eqoist, bacarıqlı, ədalətsiz, bikef
C) lovğa, istedadlı, əzazil, dərdli
D) sadə, dəcəl, qəddar, şad
E) hikkəli, qabiliyyətli, cahil, bədbin

5. Verilmiş xüsusiyyətlər hansı cümləyə aiddir?
- *Feili birləşmə tamamlıq vəzifəsindədir.*
- *İsmi birləşmənin tərəfləri ayrılıqda cümlə üzvüdür.*
- *Xəbəri mürəkkəb feillə ifadə olunmuşdur.*

A) Mən evimizdən ayrılanda çox da tələsmirdim.
B) Buz əhvalatı yadıma düşəndə mənə yaman dərd olurdu.
C) Bizim işçi sizin görmək istədiklərinizi hər vaxt sizə göstərə bilər.
D) Öz sözünə əməl etməyən şəxsin sözünə başqaları da əməl etməz.
E) Bu gün əlində olan fürsətdən faydalanmağa çalış.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

6. Hansı cümlədə adlıq halda olan isim ***işlənməmişdir***?
A) Yarışda qalib gələnlərə mükafat verildi.
B) Biz komandaya yaxşı oyunçu axtarırdıq.
C) Keçmişi xatırlayıb əzab çəkməyin mənası yoxdur.
D) Sizin sözünüzün kəsəri azdır.
E) Sabahı yaradanlar tələbələrdir.

7. Hansı xüsusiyyət şəxs əvəzliyini isimdən fərqləndirir?
A) Hallanır.
B) Şəxsə, kəmiyyətə görə dəyişir.
C) Əsasən, mübtəda və tamamlıq olur.
D) Hər biri yalnız özünə aid müvafiq xəbərlik şəkilçisi ilə işlənə bilir.
E) Kim?, nə? suallarına cavab verir.

8. Cədvəl əsasında uyğunluğu müəyyən edin.

| ***"İsə" bağlayıcısı işlənmiş cümlə*** | ***"İsə" köməkçi sözü (hissəciyi) işlənmiş cümlə*** |
|---|---|
| 1. Getmək istəyirsənsə, bəhanəsiz get.<br>2. Əgər vaxtım olsa, gələcəyəm.<br>3. Mən sursat üçün qayıtdım Əli isə körpünün üstündə qaldı. | 4. Hamı eyvanda idi, atamsa hələ də ağacın kölgəsində oturmuşdu.<br>5. Atam nə dedisə, anam təəccüblə ona baxdı.<br>6. Südabə evi, Xavər isə həyəti süpürürdü. |

A) 2,5 B) 1,2,4 C) 2,4,6
D) 3,5 E) 3,4,5

9. "*Qabiliyyət imtahanında esse də yazdırıldı*" cümləsində feil hansı qrammatik məna növündədir?
A) məlum növdə
B) məchul növdə
C) qayıdış növdə
D) şəxssiz növdə
E) icbar növdə

10. Hansı feillər III şəxsin təkində şəxs şəkilçisi qəbul edə də bilər, etməyə də bilər?
1. danışır 2. oxuyub 3. bilə
4. baxacaq 5. eşidər
A) 1,3 B) 4,5 C) 2,4
D) 1,5 E) 3,4

11. Hansı cümlədə altından xətt çəkilmiş söz zərf olmasa da, zərf kimi işlənə bilər?
A) Artıq içiləndə dərd verir su da.
B) Elçin imtahanları uğurla başa vurdu.
C) Dağın zirvəsində qara buludlar hərlənirdi.
D) Əyri yolla gedən nadan utansın.
E) Hərdən məni heyrət bürüyürdü.

t.me/BirlikTeam1

12. Cədvələ əsasən bağlayıcılarla bağlı uyğunluğu müəyyən edin.

| *Cümlə* | *Bağlayıcı nəyi bir-birinə bağlayır* | *Doğru /Yanlış* |
|---|---|---|
| 1. Bu yerlərdə nə bağ-bağat, nə də yaxşı su vardı. | Tabesiz mürəkkəb cümlənin komponentlərini | Doğru |
| 2. Mən dostumu, yəni Elxanı unuda bilmirəm. | Həmcins tamamlığı | Yanlış |
| 3. Alimlər belə hesab edir ki, neft bir neçə milyon il əvvəl yaranıb. | Baş və budaq cümlələri | Doğru |
| 4. O vaxta qədər ya dəvə ölər, ya da üstündəki hacı. | Həmcins mübtədaları | Yanlış |
| 5. Doğru ilə yalan bir araya sığmaz. | Həmcins mübtədaları | Yanlış |

A) 1,2,3 B) 1,4,5 C) 1,2,5
D) 3,4,5 E) 2,3,4

13. "*Kəndə çatmağa az qalmışdı ki, güclü yağış başladı*" cümləsi ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) □ ← ○ sxeminə uyğun tabeli mürəkkəb cümlədir.
B) Baş cümlənin xəbəri düzəltmə feillə ifadə olunub.
C) Budaq cümlə şəxssiz cümlədir.
D) Baş cümlənin bütün üzvləri nitq hissələri ilə ifadə olunub.
E) Birinci komponentdəki iş ikinci komponentdəki işin zamanını bildirir.

14. Hansı söz həm omonim, həm də çoxmənalı söz kimi işlənə bilər?
A) dəniz B) al C) qar
D) dondurma E) sərin

15. Nümunələrdəki ***bir*** sözünün morfoloji mənsubluğu ilə bağlı doğru bəndi müəyyə edin.
1. Bir uçaydım bu çırpınan yelinən – *arzu ədatı*
2. Mən bir solmaz yarpağam ki, çiçəkləri bəzərəm – *say*
3. Bir mən idim, bir sən idin, bir də ağaclar – *məhdudlaşdırıcı ədat*
4. Mən səndən bir kiçik otaq istədim – *say*
5. Bir güllə bahar olmaz – *arzu ədatı*
A) 1,2,3 B) 3,4,5 C) 1,2,4
D) 1,4,5 E) 1,3,4

16. Hansı cümlədə söz birləşməsi ilə ifadə olunan cümlə üzvü ***işlənməmişdir***?
A) Yorğun olduğum üçün axşam maraqlı futbola baxa bilmədim.
B) Okean gəmiləri üçün aysberqlər çox təhlükəlidir.
C) Ovçu birdən ayağa durub ətrafı dinlədi.
D) Dostum mənə maraqlı dağ süxurları gətirmişdi.
E) Müəllm şeir söyləyəndə hamımız heyranlıqla qulaq asırdıq.

17. "*Murad təzə eşitdiyi xəbərin təsirindən ayrıla bilmirdi*" cümləsinin morfoloji təhlilinə aiddir:
1. Adi dərəcədə olan sifət sadədir.
2. Sadə təsriflənməyən feil var.
3. Xüsusi isim qeyri-müəyyən yiyəlik haldadır.
4. İndiki zamanda olan mürəkkəb təsriflənən feil işlənmişdir.
5. Mənsubiyyət şəkilçili ümumi isim çıxışlıq haldadır.
A) 1,2,3 B) 3,4,5 C) 2,4,5
D) 1,3,4 E) 1,2,5

18. Eyler-Venn diaqramına görə uyğunluğu müəyyən edin.
Arif bunu da anlayırdı ki, hələ də gec deyil.
Dərsi bitirmişdim ki, qapını kimsə asta-asta döydü.




a. Baş cümlənin xəbəri feili xəbərdir.
b. ○ → □ sxeminə uyğundur.
c. Baş cümlədə tamamlıq var.
d. Budaq cümlədə zərflə ifadə olunan zərflik var.
e. Budaq cümlə qeyri-müəyyən şəxsli cümlədir.
A) 1-a,d; 2-b; 3-c,e B) 1-b; 2-d; 3-a,e
C) 1-d; 2-b; 3-a,c D) 1-d; 2-b,e; 3-a,c
E) 1-d; 2-b; 3-e

19. "*Qaraltmışdır*" sözü haqqında düzgün fikirdir:
A) Sifətdən düzələn, xəbər şəklində 3-cü şəxsin təkində olan feildir.
B) İki leksik, iki qrammatik şəkilçisi olan, icbar növdə olan feildir.
C) Addan düzəlib məlum növdə və iki qrammatik şəkilçi olan feildir.
D) Feildən düzələn 3-cü şəxsdə olan feili sifətdir.
E) Kökü sifət olan, feildən düzələn, 3-cü şəxsin təkində, keçmiş zamanda olan feildir.

20. Biri fərqli yazı nümunəsidir:
A) Qab-qacaq mağazasının üzərində çəngəl-bıçaq şəkli
B) Çörək mağazasında lövhəyə çəkilən çörək şəkli
C) Uşağın dəftərdə çəkdiyi kitab şəkli
D) Transformatorun üstündəki kəllə şəkli
E) Zoologiya kitabındakı ceyran şəkli

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/Birlik_team1

21.“*Bu dünyanın qəmini bədbin, sevincini isə nikbin insanlar ürəklərində daşıyırlar*” nümunəsində ***işlənməmişdir***:
A) söz birləşməsinin tərkibində olmayan əvəzlik
B) müəyyən şəxsli cümlə
C) həmcins təyinlər
D) ismi birləşmə ilə ifadə olunan tamamlıq
E) düzəltmə isim

22.Hansı cümlədə kökü feillə omonim olan söz işlənib?
A) Ağac qırıntılarını həyətdən təmizlədik.
B) Yaxşı xəbəri eşidəndən sonra yaralının əhvalı düzəlmişdi.
C) Anam kəsilmiş çolpaları yolub təmizlədi.
D) Qazılmış çökəyi doldurdular.
E) Yağışın yağmasına heç kəs təəccüb etmədi.

**Açıq tipli test tapşırıqları:**

23.Müxtəlif hərflərin eyni səsi ifadə etdiyi sözləri müəyyən edin.
1. dadlı 2. dəqiq 3. külüng
4. ittiham 5. abırlı

24.Həm sinonimi, həm antonimi olan frazeoloji birləşmələri müəyyən edin.
1. zəhləsi getmək 2. başına gəlmək
3. çiçəyi çırtlamaq 4. ağzını qıfıllamaq
5. zildən oxumaq

25.Hansı sual cümlələrini modal söz və ya ədatla cavablandırmaq ***olmur***?
1. Vətən haradan başlanır?
2. Ədalətin qələbə çalacağına inanırsınızmı?
3. Niyə insanlar təkbaşına yaşamaq istəmirlər?
4. Siz nə üçün insanın ən kamil varlıq olduğuna inanırsınız?
5. Sınaq imtahanında iştirak etdin?

26.***Yanlış*** olanları seçin.
1. ——— ═════ tipli cümlələrdə yalnız bir sintaktik əlaqə olur.
2. “*Bizim ağsaçlı, müdrik müəllimimiz artıq təqaüdə çıxmışdı*” cümləsində həmcins təyinlər işlənib.
3. “*Etibarnamə*” sözündə iki açıq sait uzun tələffüz edilir.
4. Əgər bir cümlədə mübtəda yoxdursa, xəbər və ikinci dərəcəli üzvlər varsa, xəbər sintaktik əlaqələrin yalnız əsas tərəfi olur.
5. “*El bilir ki, sən mənimsən*” tabeli mürəkkəb cümləsinin xəbərləri feili xəbərlərdir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

27.Uyğunluğu müəyyən edin.
1. Zərf deyil, amma zərfliyin ifadə vasitəsi ola bilir.
2. Feildir, amma zərfliyin ifadə vasitəsi ola bilmir.
a. inişil b. danışır
c. baxar-baxmaz d. dağlarda
e. günbəgün

**Mətni diqqətlə oxuyun və tapşırıqları yerinə yetirin.**

Bir gün bir müəllim şagirdlərinə dənizdə batan bir gəminin hekayəsini danışır.

Gəmi dənizin ortasında qəflətən batmağa başlayır. Gəmidəki bir ailə xilasetmə qayığına yaxınlaşanda orada ancaq bir nəfərlik yer qaldığını görür. Bu vaxt ər arvadını gəmidə qoyub özünü qayığa atır. Qadın ərinə baxır və son cümləsi belə olur... Müəllim burada bir anlıq dayanır və şagirdlərindən: “Sizcə, qadının ərinə son cümləsi nə olur?” – deyə soruşur. Şagirdlər demək olar ki, bir ağızdan: “Sənə nifrət edirəm!” – deyir. Bu vaxt müəllim küncdə səssizcə duran bir uşaq görür və ona da eyni sualı verir. Uşaq isə: Müəllim, məncə, qadınını son cümləsi: “................................” – olur, – deyir. Müəllim təəccüblə uşağa baxır və: “Sən heç əvvəl bu hekayəni eşitmişdin?” – deyə soruşur. Uşaq: “Yox! Ancaq anam vəfat etməmişdən əvvəl atama eyni şeyi demişdi”, – deyə cavab verir. Müəllim kədərli ifadə ilə: “Cavabın doğrudur”, – deyir və sonra yenidən hekayəni danışmağa başlayır: “Gəmi batandan sonra kişi evinə gedir və qızını təkbaşına böyüdür. İllər keçəndən sonra ata vəfat edir və bir gün qız atasının gündəliyini tapır. Gündəliyi oxuyanda qız gəmi səyahətindən əvvəl anasına ölümcül xəstəlik diaqnozu qoyulduğunu görür. Sonra isə ata gündəliyində bu sözləri yazır: “O batan gəmidə səninlə bir yerdə olmağı nə qədər çox istərdim! Ancaq qızımız üçün səni o gəmidə tək qoymaq məcburiyyətində qaldım”. Hekayə burada sona çatır və sinfə dərin bir səssizlik çökür. Sonra müəllim lövhədə bu sözləri yazır: “Həyatda heç bir şey ... deyil”.

28.Mətnin məzmununa uyğun olaraq qadının son cümləsi necə olar?

29.Altından xətt çəkilmiş cümləyə məcazi mənalı ifadə artıraraq cümləni tamamlayın.

30.Mətnin son cümləsində nöqtələrin yerinə hansı ifadə yazılmalıdır ki, cümlə mətnin məzmununa uyğun tamamlansın.

## Tarix

31. Neolit və Eneolit dövrləri üçün ümumi cəhəti müəyyən edin:
A) Taxılın metal oraqla biçilməsi
B) Saxsı qabların hazırlanması
C) Süni suvarma sistemindən istifadə
D) Şumlama zamanı qoşqu heyvanlardan istifadə
E) Misdən iynə, biz, balıq tutmaq üçün qarmaq hazırlanması

32. II Xaç yürüşü üçün səciyyəvidir:
1. Mosul hakiminin Eddessanı tutmasına cavab olaraq baş verdi
2. Qüdsdə müsəlman və yəhudi əhaliyə qarşı qətliam törədildi
3. İngilis və Fransız krallarının Qüdsü ələ keçirmək istəyi baş tutmadı
4. Venesiyanın təkidi ilə xaçlı ordusu istiqaməti Konstantinopola doğru dəyişdi
5. 1147-ci ildə başladı
A) 1,3,4 B) 2,4,5 C) 1,3
D) 1,2,4 E) 1,5

33. Eyler – Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a) İqtisadi cəhətdən güclü mərkəzləşmiş dövlətə çevrilmişdi
b) II Bəyazidlə dostluq münasibətləri yaratdı
c) Dövlətin yaranması ilə oğuzların Azərbaycanda və qonşu ərazilərdə siyasi hakimiyyəti yenidən bərqərar oldu
d) Teymuri Əbu Bəkri Sərdrud düzündə məğlub etdi
e) Təbrizi paytaxt seçdi
A) 1-a;2-c;3-b;4-e B) 1-a;2-c,d;3-b;4-e
C) 1-d;2-a;3-b;4-c D) 1-a,c;2-d;3-e;4-b
E) 1-c;2-a;3-d;4-b,e

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

34. Paytaxtı ulduz ilə işarələnmiş feodal dövlətin cədvəldəki dövlətlər ilə ümumi cəhətlərini müəyyən edin:




| 1. Salarilər | 2. Sacilər | 3. Şəddadilər |
|---|---|---|
| a. Slavyanlar tərəfindən qarət edildi<br>b. Dərbəndi ələ keçirdi<br>c. Rəvvadilər tərəfindən varlığına son qoyuldu | a. Sülalə nümayəndələri afşin titulu daşıyırdı<br>b. IX əsrdə meydana gəlmişdi<br>c. Samanilər ilə mübarizə apardı | a. Rəvvadi hökmdarı ilə dostluq münasibətləri yaradıldı<br>b. Səlcuq dövlətindən asılı hala düşdü<br>c. Beyləqanı dövlətin ərazisinə birləşdirdi |

A) 1-a;2-b;3- c B) 1-c;2-b;3-a
C) 1-c;2-a,b;3-c D) 1-a,b;2-b;3-b
E) 1-b;2c-;3-a,c

35. II Dünya müharibəsi dövrünə aid hadisələrin xronoloji ardıcıllığını müəyyən edin:
1. Novqorod vilayətinin Pustinka kəndi yaxınlığında döyüş
2. Faşist ordusunun Qafqaz üzərinə hücuma başlaması
3. Stalinqrad döyüşündə Alman ordusunun təslim olması
4. Fransız və Azərbaycanlı partizanların Rodez şəhərini azad etməsi
A) 1,2,3,4 B) 4,3,2,1 C) 2,3,1,4
D) 2,1,3,4 E) 1,3,4,2

t.me/BirlikTeam1

36. XIX əsrin 30-cu illərində üsyanların baş vermə səbəblərinə uyğun gəlməyən bəndi müəyyən edin:

| | | | |
|---|---|---|---|
| Komendant idarə üsulunun tətbiqi | Məmurların özbaşınalığı | Vergi və mükəlləfiyyətlərin artırılması | ? |

A) Köçürmə siyasəti
B) Milli və dini zülm
C) Təhkimçiliyin ləğv edilməsi
D) İltizam sisteminin mövcudluğu
E) Hakim təbəqənin hüquqlarının məhdudlaşdırılması

37. İngiltərədə XIX əsrin ikinci yarısında:
1. İri sənaye şəhərləri parlamentdə təmsil olunmağa başladı
2. Fəhlələrin yuxarı təbəqəsi seçki hüququ qazandı
3. Kanadaya dominion hüququ verildi
4. "Azadolunma haqqında Bəyannamə" imzalandı
5."Homstedlər" haqqında Qanun qəbul edildi
A) 1,3 B) 2,3 C) 3,4,5
D) 1,4 E) 2,3,4

38. XIX əsrin 20-ci illəri Qarabağ və Lənkəran xanlıqları üçün ümumi cəhətdir:
A) Erməni idarəçiliyi yaradıldı
B) Əyalət şurası fəaliyyətə başladı
C) Gülüstan müqaviləsi ilə Rusiya hakimiyyəti altına düşdü
D) Varlığına son qoyuldu
E) Rusmeyilli qüvvələrdən ibarət müvəqqəti idarə yaradıldı

39. Qubalı Fətəli xanın fəaliyyəti ilə bağlı uyğunluğu müəyyən edin:

| 1. Köçürmə siyasəti | 2. Birləşdirmə siyasəti |
|---|---|
| a. Kəndxudalar topladığı vergini şəxsən xəzinəyə təhvil verməli idi<br>b. Dərbənd xanlığı əhalisinin bir hissəsi Quba xanlığına köçürüldü<br>c. Qarabağ, Şəki xanlıqları və II İraklinin ittifaqına qarşı mübarizə | a. Bakı xanlığı ilə "nikah diplomatiyası"ndan istifadə<br>b. Cəngavər Şahsevən tayfasının xanlığa köçürülməsi<br>c. Gavduşan çölündə məğlubiyyət |

A) 1-c; 2-b B) 1-c; 2-a,b C) 1-b; 2-a,c
D) 1-a; 2-a E) 1-a,b; 2-a

40. 1870-ci il kəndli islahatının tətbiq edilmədiyi bu ərazidə sahibkar kəndliləri 1913-cü ildə torpaq mülkiyyətçisinə çevrildilər:




A) 1 B) 2 C) 3 D) 4 E) 5

41. Azərbaycan Respublikasının XX əsrin sonlarına aid xarici – iqtisadi əlaqələri üçün xarakterikdir:
A) İlham Əliyevin AŞPA-nın vitse prezidenti və büro üzvü seçilməsi
B) TANAP – ın istismara verilməsi
C) ATƏT – in Minsk qrupu həmsədrləri təsisatının yaradılması
D) İpək yolunun bərpası üzrə konfrans keçirilməsi
E) NATO – nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qəbul olunması

42. "44 günlük müharibə" dövrünə ***aid deyil:***
A) Xocalı, Xocavənd, Ağdərə və Əsgəranın terrorçulardan təmizlənməsi
B) Cəbrayıl rayonunun azad edilməsi
C) "Qarabağ mücrüsü" adlı planın tətbiq edilməsi
D) Şuşanın açarı – Hadrutun azad edilməsi
E) "Keçilməz Ohanyan səddi"nin yarılması

43. Ərəb xilafətinin VIII əsr tarixindən fərqli olaraq VII əsr tarixi üçün xarakterikdir:
1. Sasani dövləti ilə müharibələr
2. Yeni sülalənin hakimiyyətə gəlməsi
3. Frankların müqaviməti ilə qarşılaşmaları
4. Xərac adlanan torpaq vergisinin toplanması
5. "Rəşidi xəlifələr" tərəfindən idarə olunması
A) 1,2,3 B) 2,4 C) 1,3,5
D) 1,5 E) 2,4,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

44. Hadisə və nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| 1 | Böyük Çin səddinin tikilməsi | Hun – Çin müharibələrinin sona çatması |
| 2 | Pinçen döyüşü | Çin ordusu Turan taktikası ilə mühasirəyə alındı |
| 3 | E.ə 36-cı ildə Çin ordularının Qərbi Hun üzərinə hücumu | Böyük Hun dövləti iki hissəyə parçalandı |
| 4 | E.ə IV – III yüzilliklərdə Çinin quldar dövlətləri arasında müharibələr | Çin ərazisi 36 vilayətə bölündü |
| 5 | E.ə III əsrin sonlarında Çin dövlətində sülalə dəyişikliyinin baş verməsi | Xan sülaləsi hakimiyyətə gəldi |

A) 2,5 B) 1,2 C) 3,4
D) 3,5 E) 1,4

45. Pun müharibələrində Roma tərəfindən ələ keçirilən əraziləri müəyyən edin:




A) 1,3,4 B) 2,3,5 C) 1,2,3
D) 3,4,5 E) 1,4,5

46. Xəzər xaqanlığına aid xüsusiyyətləri müəyyən edin:
1. Avropalılardan əvvəl kağız istehsal edib, mətbəə yaratmışdılar
2. IX yüzilliyin 40-cı illərində varlığına son qoyuldu
3. Maniçiliyin qəbul edilməsi xəzərlərin döyüş ruhunu aşağı saldı
4. Dövlətdə ikinci nüfuzlu şəxs xaqanbəyi hesab olunurdu
5. VIII əsrdə musəvilik dövlət dini elan edilmişdi
A) 1,3,4 B) 4,5 C) 2,3,4 D) 1,5 E) 1,3,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

47. *Nəsirəddin şah Qacar bütün İranda tütün almaq, satmaq və emal etmək üçün inigilislərlə müqavilə imzaladı və şirkət bunun müqabilində əldə edəcəyi qazancdan İran hökumətinə ildə cüzi bir məbləğ ödəməyi öhdəsinə götürdü.*
Mətndə bəhs olunan siyasətin nəticələrini müəyyən edin:
1. Tehran əhalisi 1892-ci ildə şah sarayına hücum etdi
2. Zeynəb paşanın rəhbərliyi ilə Təbrizdə çıxışlar başladı
3. Möhtəkirlər ərzaq məhsullarını ucuz qiymətə əhaliyə satmağa məcbur oldular
4. Şah Talbot ilə bağlanmış müqaviləni ləğv etdi
A) 1,3 B) 2,3 C) 3,4 D) 1,4 E) 1,2

48. Monqol imperiyasının XIV əsrin əvvəlləri tarixinə aiddir:
A) İmperiyanın parçalanması
B) Paytaxtın köçürülməsi
C) Yuan sülaləsinin əsasının qoyulması
D) Türkləşmə prosesinin başa çatması
E) İslamın rəsmi dövlət dini elan edilməsi

49. YİS xətti ilə bağlı ardıcıllığı tamamlayın:
*1. Ərzaq sapalağı ərzaq vergisi ilə əvəz edildi*
*2. Kəndlilərin artıq məhsulları bazara çıxarılması asanlaşdı*
*3.........................................................................*
A) Koxozçular pasportlaşmadan məhrum edildi
B) Ticarətin sərbəstləşməsi müştərək müəsisələrin yaradılmasına şərait yaratdı
C) Kollektiv kəndli təsərrüfatları yaradıldı
D) Fərdi kəndli təsərrüfatları ləğv olundu
E) Bütün istehsal sahələri dövlətin əlində mərkəzləşdirildi

50. XIII – XIV əsrlərə uyğun gəlir:
A) Fazil Fəriddin Şirvaninin fəaliyyəti
B) Tərtər çayı üzərində (Bərdə) körpünün tikilməsi
C) Sultaniyyə və Mahmudabad şəhərlərinin salınması
D) Şirvanşahlar saray kompleksinin tikilməsi
E) Təbrizdə Qeysəriyyə bazarının fəaliyyətə başlaması

51. Verilən tarixi faktlardan heç birinin aid olmadığı dövləti müəyyən edin:




- Kipri ilhaq etməyə çalışırdı
- 1960-cı ildə ordu hakimiyyəti ələ keçirdi
- 1952-ci ildə NATO-ya daxil oldu
- "Brexit" planı ilə 2020-ci ildə Avropa birliyindən ayrıldı
- II Dünya Müharibəsindən sonra Müvəqqəti rejimin fəaliyyəti sona çatdı, IV Respublika dövrü başladı

A) 1 B) 2 C) 3 D) 4 E) 5

52. Ərəb dövlətlərinin əksəriyyətinin Misirlə siyasi – iqtisadi əlaqələrini kəsməsinə səbəb oldu:
A) 1993-cü il Vaşinqton sazişi
B) Kemp – Devid sazişi
C) "Altıgünlük müharibə"
D) Fələstin Azadlıq Təşkilatının İsrailə qarşı partizan müharibəsinə başlaması
E) 1973-cü ildə ərəb dövlətlərinin itirilmiş əraziləri geri qaytarmaq cəhdi

**Açıq tipli test tapşırıqları:**

53. Hadisə - Nəticə əlaqələrini müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | İskit hökmdarı İşpakayın ölməsi | Ahşeri Mannanı müstəqil elan etdi |
| 2 | Midiyada e.ə 673-cü ildə xalq hərəkatının başlaması | Midiya Assuriya əsarətindən həmişəlik azad oldu |
| 3 | Kiaksarın Babil dövləti ilə ittifaq qurması | Assuriya ordusu məğlub edildi |
| 4 | Astiaqın zərdüşt kahinləri sayılan maqlar ilə yaxınlaşması | Azərbaycanın şimalında müstəqil dövlət yarandı |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

54. Bakı XKS-nin həyata keçirdiyi tədbirləri müəyyən edin:
1. Xəzər ticarət donanması gəmiləri sahibkarlara qaytarıldı
2. Neft sənayesi milliləşdirildi
3. Xalq milisi, inqilabi tribunal, xalq məhkəməsi yaradıldı
4. Noyabrın 20-də " Azərbaycan parlamentinin yaradılması haqqında" Qanun qəbul etdi
5. 1918-ci ilin iyun ayında ərzaq və bəzi xammal məhsullarının xaricə çıxarılmasına müvəqqəti qadağa qoyuldu

55. Şah I Abbasın I Təhmasib ilə oxşar, Şah II Abbasdan fərqli xüsusiyyətləri:
1. Dövlətin paytaxtının köçürülməsi
2. Osmanlı ilə sülh müqaviləsinin imzalanması
3. Osmanlı dövləti ilə sülh və mehriban qonşuluq münasibətlərinin qurulması
4. Rusiya ilə hərbi münaqişə
5. Rəiyyət və sənətkarların dövlət xəzinəsinə olan vergi borclarının ləğv edilməsi

56. *Uzun sürən ara müharibələri və tabe edilən xalqların üsyanları dövləti zəiflətdi. Bu zəiflik Avropa xaçlılarının qarşısını almağa imkan vermədi və Aralıq dənizi sahillərində bəzi ərazilər itirildi. Eyni zamanda qeyri – müsəlman tayfa olan qarakitayların hökmdarı məğlub etməsi müsəlman əhalisi arasında nüfuzunun düşməsinə səbəb oldu.*
Mətndə bəhs edilən dövlət ilə Osmanlı dövləti üçün ümumi cəhətlər:
1. Əmir Teymura məğlub oldu
2. XI – XIII əsrlərdə xaç yürüşlərinə məruz qaldı
3. Bizans ilə mübarizədə qalib gəldi
4. Bağdad ələ keçirildi

57. Uyğunluğu müəyyən edin:
*1. XIX əsrin 50-ci illəri*
*2. XIX əsrin 60-cı illəri*
*3. XIX əsrin 70-ci illəri*
a. Bloklara qoşulmayanlar hərəkatının yaranması
b. Qarşılıqlı iqtisadi yardım şurasının yaradılması
c. SSRİ tərəfindən dünyanın ilk qitələrarası ballisitik raketinin yaradılması
d. ABŞ və SSRİ arasında Strateji silahların məhdudlaşdırılması (SSM-1) müqaviləsinin bağlanması
e. Sovet qoşunlarının Əfqanıstandan çıxarılması

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

...Müharibə ABŞ-ı ön sıraya çıxartmışdı. Belə bir gələcək müttəfiqlər üçün görünmürdü. Avstriya-Macarıstanın məğlubiyyəti italyanlara imkan verirdi ki, öz planlarını reallaşdırsınlar. Ona görə də, daha vuruşmaq istəmirdilər! İngiltərə də istədiyinə nail olmuşdu. Almaniyanın koloniyalarına yiyələnmişdi. Fransa da müharibənin tez qurtarmasını istəyirdi. Bütün müttfiq dövlətləri Almaniyada inqilab başlanacağından qorxurdular. Çünki, inqilab alovu bütün Avropaya yayıla bilərdi.... Müttəfiqlər arası konfransda Fransa bildirdi ki, o, alman rəqibinin ciddi zəifləməsini, onun ikinci dərəcəli dövlətə çevrilməsini istəyir. ABŞ heç bir vasitəçi olmadan Almaniya və Avstriya-Macarıstanla danışıqlara başlayacağını bildirdi. «Separativ sülh?» - deyə Klemanso soruşduqda ABŞ nümayəndəsi Bəli, - deyə cavab verdi. Klemansonun fikri ilə şərik olan Lloyd Corc müharibəni davam etdirə bilməyəcəklərinə təəssüfləndiyini bildirdi.

58. Tarixi biliklərinizə əsasən bəhs olunan müharibənin hansı iki hərbi-siyasi bloklar arasında baş verdiyini qeyd edin:

59. Tarixi biliklərinizə əsasən bəhs olunan müharibənin başlanması üçün bəhanəni yazın.

60. Fransanın mənbədə bəhs olunmayan məqsədlərini tarixi biliklərinizə əsasən müəyyən edin:

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Ədəbiyyat

61. İ.Şıxlının “Dəli Kür” əsərindəki obrazlarla bağlı doğru fikirləri müəyyənləşdirin.
1. Mələyin evdən qaçması Cahandar ağa ilə oğlu arasında münaqişəyə səbəb olur.
2. Cahandar ağanın mülkədar kimi sinfi təbiəti kəndlilərə, kasıb gəmiçi ailəsinə münasibətdə özünü büruzə verir.
3. Molla Sadıq obrazı bütün din xadimlərinin ümumiləşdirilmiş surətidir.
4. Mənəvi cəhətdən yoxsul olan Allahyar Qəməri qaçırmağa cəhd edir.
5. Cahandar ağanın faciəsini şərtləndirən səbəb yalnız ailəsindəki sarsıntılar deyil.
A) 2,5 B) 1,2,4 C) 3,4,5
D) 1,5 E) 2,3,4

62. “Qafqaz müsəlmanlarına xitab” (S.Ə.Şirvani) əsəri ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
*Şairə görə:*
A) Elmsiz insan heyvana bərabərdir.
B) Başqa millətlər inkişaf etsə də, islam milləti zillətdə qalıb.
C) İnsanın zinəti, bəzəyi elmdir.
D) Bu qədər dərdin səbəbi savadsızlıqdır.
E) İndi islam milləti xəstədir və bunun çarəsi yoxdur.

63. Hansı fikirlər H.Cavidin “İblis” əsərində Arif obrazına ***aid deyil***?
1. Yer üzündəki zülmləri görməmək üçün Allahdan onu göylərə qaldırmasını istəyir.
2. Haqq-ədalət axtarışları onu kamil insana çevirir.
3. Öldürüb-ölməyin fəzilətli bir şey olarsa, canavarın insandan üstün olduğunu ifadə edir.
4. Bir çox dahilərin, peyğəmbərlərin İblisdən yaxa qurtara bilmədiyini xatırladır.
5. İblisi *sahibi-kəramət* deyə tanıdır.
A) 2,3,5 B) 2,4 C) 3,4
D) 1,2,3 E) 1,4,5

TheBirlikTeam1

64. Cədvələ əsasən Ç.Aytmatovun əsərləri ilə bağlı uyğunluğu müəyyən edin.

| *"Gün var əsrə bərabər" əsəri ilə bağlı doğrudur* | *"Manqurt" əsəri ilə bağlı **yanlışdır*** |
|---|---|
| 1. Yedigeyin arzusu Qazanqapın yanında dəfn olunmaq idi. | 4. Nayman ananın ölümündən sonra oğlu anası olduğunu başa düşür. |
| 2. Ukubalanın gətirdiyi xəbərdən sonra Qazanqapın övladlarına atasının xəstəliyi ilə bağlı xəbər verilir. | 5. Manqurt adi qullardan daha dəyərli idi. |
| 3. Dəfnə gedənlər içərisində Caydaq Ədilbəy keşik rəisi ilə danışmağı təklif edir. | 6. Manqurt olan sağ olsa belə, qəbiləsi onu qaytarmaq istəməzdi. |

A) 1,3,5 B) 2,3,5,6 C) 1,2,4
D) 1,3,4 E) 2,4,5,6

65. M.F.Axundzadənin "Hekayəti-Müsyö Jordan" əsərinin obrazları ilə bağlı cədvəldəki doğru fikirləri müəyyən edin.

| ***Müsyö Jordan*** | ***Məstəli şah*** |
|---|---|
| 1. Ona əks mövqedə duran obrazla heç vaxt üz-üzə gəlmir. | 4. Məstəli şahın başqa dildə danışması onun cadugərliyi yaxşı bilməsindən irəli gəlirdi. |
| 2. Parisin dağılması xəbərini ona ingilis konsulundan divanbəyi gətirir. | 5. Şahbazın Parisə getməsinin qarşısını almaq üçün üç yoldan ikisinin münasib olduğunu bildirir. |
| 3. Müsyö Jordanın Qarabağa gəlməkdə məqsədi fransız dilini və Fransa mədəniyyətini təbliğ edəcəyi gənclər tapmaq idi. | 6. Köhnəliyi təmsil edən bu obraz maskalanaraq əsl simasını gizlətməyə müvəffəq olur, min cür fırıldaqla sadəlövh insanları souyub-talayır. |

A) 1,3,5,6 B) 3,4,5 C) 1,2,5,6
D) 1,2,4 E) 2,3,4,6

66. S.Vurğunun "Vaqif" pyesindəki obrazlarla bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. İlyas Eldarı arxadan vurmaq istəyəndə Kürd Musa onu öldürür.
2. Şeyx hücuma keçmiş Eldar tərəfdən vurularaq öldürülür.
3. Eldara İbrahim xanın qaçdığını Əli bəy xəbər verir.
4. Teymur Tamaranın qaçması üçün şərait yaradır.
5. Qacar Azərbaycanı patavalı, çoban bir ölkə adlandırır.
6. Gülnar Vaqifin məktubunu Eldara çatdırır.

A) 1,4,6 B) 2,4 C) 1,3,5
D) 4,5 E) 2,3,6

67. X.R.Ulutürkün "Qaytar mənim qüdrətimi, Azərbaycan!" əsəri ilə bağlı cədvəldəki hansı rəqəmlərin yeri dəyişdirilsə, uyğunluq gözlənilmiş olur?

| ***Doğrudur*** | ***Yanlışdır*** |
|---|---|
| 1. Qarı düşmənin altı milyard insanlıq qarşısında tək qaldığı fikri əks olunub. | 4. Əsərdə Sovet rejiminin xalqa acılar yaşatmasının təsviri verilib. |
| 2. Özünü Həzrət Əli qılıncına bənzədərək oddan bir qın geyməli olduğunu vurğulayır. | 5. Şair qoca tarixə müraciətlə dünəni unutsa belə, gələcəyə baxaraq kimsəyə boyun bükməyəcəyini ifadə edir. |
| 3. Təbrizin çöllərində ayaq izlərimizin hələ də qaldığını bildirir. | 6. Lirik qəhrəman inanır ki, vaxtsız gedən mərdlərin qisası alınacaq. |

A) 3↔6 B) 3↔4 C) 2↔6
D) 1↔5 E) 2↔5

68. Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitəsini müəyyən edin.
*"Dedim kim yırtmışdır səbir pərdəni?*
*Qalxıb səhər yeli söylədi ki, mən!"*
A) bədii sual, inversiya
B) inversiya, metafor
C) təşbeh, metafor, epitet
D) epitet, metafor, mübaliğə
E) bədii sual, epitet, metafor

69. "Həmzənin Qıratı qaçırması" ("Koroğlu" eposu) qoluna əsasən cədvəldəki uyğunluqları müəyyən edin.

| ***Obraz*** | ***Obraz haqqında fikirlər*** |
|---|---|
| 1. Hasan paşa | Qıratı Koroğlunun əlindən çıxartması ilə lovğalanır. |
| 2. Eyvaz | Dar ağacının dibində gözünü Koroğluya zilləyir və sevincdən gözləri dolur. |
| 3. Nigar xanım | "*Ay Koroğlu, sən ki belə igidsən, görəsən, bu dünyada sənin kimi ikinci bir adam var, ya elə anan səni tək doğub?*" sualı bu obrazın dilindən verilir. |
| 4. Koroğlu | Özlərinə "Muradbəyli" adını verdiklərini vurğulayır. |
| 5. Həmzə | Dona xanıma Koroğlunun gələcəyi təqdirdə atasının kəlmeyi-şəhadət gətirəcəyini bildirir. |

A) 1,2,4 B) 1,2,3 C) 4,5
D) 2,3,4 E) 3,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

70. Nöqtələrin yerinə yazıla biləcək fikri müəyyən edin.
*M.P.Vaqifin "Pəri" qoşmasında ...*
A) Şair hər yetən gözələ gözəl demir.
B) Gözəlin söhbəti şirin, gülüşü şəkərdir.
C) Lirik qəhrəmanın gecə-gündüz fikri əzbəri olmuşdur.
D) Pərinin xoş zəbanı tutiyə bənzədilir.
E) Şair həsrətdən heyva kimi saralıb.

71. N.Gəncəvinin "İskəndərnamə" əsərindəki obrazlarla bağlı uyğunluğu müəyyən edin.
1. İskəndər
2. Dara
a. Çalğısız, içkisiz məclis düzəldir.
b. Özünə xəyanət edən iki sərkərdəni edam etdirir.
c. Yeddi ölkənin hökmdarı olur.
d. Özünə rəqib hesab etdiyi hökmdardan xərac tələb edir.
e. Ona göndərilən elçiyə qarşı qəddar rəftar edir.
A) 1 - c,d; 2 - a,b B) 1 - a,c; 2 - d
C) 1 - b,c; 2 - e D) 1 - c; 2 - b,d
E) 1 - c,e; 2 - a,d

72. M.Ə.Sabirin "Neylərdin, ilahi?" əsəri ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Həyasızlıq artdıqca el buna yenə də dözür.
2. Bağın əkinin xeyrini ancaq bəylər görür.
3. Çətin həyat şəraiti dehqanların məğrurluğunu əlindən ala bilmir.
4. Bütün aləmdə cəhalət hökm sürür.
5. Şeytana ehtiyac olmayan bir dövrə gəlib çıxmışıq.
6. Şair məzlumların haqqının müdafiəçisi kimi səsini qaldırır və onları üsyana səsləyir.
A) 1,2,5,6 B) 1,2,4,5 C) 2,3,4,6
D) 1,3,6 E) 3,4,5

73. N. Vəzirovun "Müsibəti-Fəxrəddin" əsəri ilə bağlı cədvəldəki uyğun fikirləri müəyyən edin.

| ***Doğrudur*** | ***Yanlışdır*** |
|---|---|
| 1. Əhməd Rüstəm bəyə verdiyi əhdə sadiq qalaraq Mahmudun intiqamını alır. | 4. İntiqam diləyən qadın obrazı yaşadığı hisslərin təsiri altında qalaraq toy diləyir. |
| 2. Fəxrəddin bəy düşünür ki, onu Səadətdən yalnız əcəl ayıra bilər. | 5. Səadət xanım Fəxrəddindən sonra da ona sadiq qalacağını söyləyir. |
| 3. "Rəşidimin yadigarı", – deyə Rüstəm bəy oğlu Mahmudu nəzərdə tutur. | 6. Keçəl olan obraz dostunu Fəxrəddin bəyi öldürməyə tələsdirir. |

A) 2,4,5 B) 2,3,6 C) 1,4,5
D) 1,3,5 E) 1,2,6

*Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı*

74. S.S.Axundovun "Nurəddin" əsəri ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Əmiraslanın simasında yanlış tərbiyənin acı nəticəsi əks olunub.
2. Əmiraslan quldurluq etdiyi üçün divan tərəfindən tutulub zindana atılır.
3. Gülpəri kəndə gedərkən Baharı da aparır.
4. Hacı Nəsirin etdiyi yaxşılıq elə öz qabağına çıxır.
5. Gülpərinin Nurəddinə münasibəti maddi maraq üzündən dəyişir.
A) 2,3 B) 3,5 C) 1,2
D) 1,5 E) 3,4

75. "Dərzi şagirdi Əhməd" nağılı ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Əsərdəki şah obrazının gözəl avazı olduğu deyilir.
2. Zindanın dibindən saray otaqlarından birinə qapı açmağı zindanban təklif edir.
3. Pəri Soltan Əhmədi Yusif peyğəmbərə bənzədir.
4. Qaravaş zindanda kiminsə ağladığını eşidib Pəri Soltana xəbər verir.
5. İkinci sualın cavabını tapmaq qarşılığında Pəri xanımla kəbin kəsilməsi şərtini qoyur.
6. "Namussuz yaşamaqdansa, namuslu ölmək daha əfzəldi" fikri Şah Abbasa məxsusdur.
A) 1,3,4,5 B) 2,3,5,6 C) 1,2,5
D) 1,2,4,6 E) 3,4,6

76. C. Cabbarlının "Oqtay Eloğlu" əsərinə aid cümlədə nöqtələrin yerinə yazıla bilər.
"*.......əsərin ideyasının əsasında dayanır.*"
1. Çar Rusiyasının işğalçılıq siyasəti
2. Mədəni gerilik
3. İnkişafa qənim kəsilənlərin güclü olması
4. Azərbaycançılıq idealı
5. Yenilik uğrunda mübarizə aparanların böyük maneələrlə üz-üzə gəlməsi
6. Saf əxlaq, təmiz məhəbbət idealının qorunması
A) 1,3,4 B) 2,4,5 C) 1,5,6
D) 2,3,6 E) 2,3,5

77. M.Füzuli ilə Aşıq Ələsgər yaradıcılığının ortaq xüsusiyyətləri haqqında deyilən fikirlərdən biri doğrudur:
A) Yaradıcılığında qəzəl janrından da istifadə etmişdir.
B) Epik növdə əsərlər yaratmışdır.
C) Aşıq şeiri janrlarından istifadə etmişdir.
D) Qoşmalarında tərənnüm olunan gözəl real insandır.
E) İctimai motivli lirik şeir yazmışdır.

78. İ.Əfəndiyevin “Xurşidbanu Natəvan” əsərindən verilmiş hadisələrlə bağlı hansı rəqəmlərin yeri dəyişdirilsə, ardıcıllıq bərpa olunar?
1. Zahir bəy Nəvvaba Tiflisdən qonaq gəldiyi üçün yığıncaq olmayacağını deyir.
2. Xurşudbanu Seyid Hüseyni müəllim təyin edir.
3. Knyaz Xasay haqda nalayiq həcvlər yazılır.
4. Möhnət və Şahmar Mil düzünə Arazdan arx çəkilməsini istəyir.
5. Xurşudbanu bulağın açılışı münasibətilə şəhər əhalisini qonaq çağırır
A) 2↔3 B) 1↔5 C) 4↔5
D) 1↔2 E) 3↔4

79. “Kitabi-Dədə Qorqud” və “Koroğlu” dastanlarındakı obrazlarla bağlı uyğunluğu müəyyən edin.
1. Eyvaz
2. Uruz
a. Valideynlərinin birgə səyi nəticəsində düşmən əsarətindən qurtulur.
b. Atası olmadan getdiyi ovda düşmənə əsir düşür.
c. Bu obraz oğulun hünəri atadan görüb öyrəndiyi qənaətindədir.
d. Atasının sözünə qulaq asmayıb intiqam almağa gedir.
e. Bu obrazın töhmətli sözləri atasına dağlardan ağır gəlmişdi
A) 1 - b,e; 2 - a,c B) 1 - b,e; 2 - a,d
C) 1 - a; 2 - c,d D) 1 - c,e; 2 - a,b
E) 1 - a,c; 2 - b,e

80. “Namərd gülləsi” (İ.Şıxlı) əsərinin məzmununa əsasən doğru fikirləri müəyyən edin.
1. Mürşüdün ona edilən yaxşılığı tez unutması, ailə qədri bilməməsi keçmişi bilinməyən adamdan gözlənilən idi.
2. Mürşüd əsl simasını büruzə verir, ona yardım etmiş adamın qatilinə çevrilir, özü də öldürülür.
3. Hekayədə konfliktin bir tərəfində Niftalı koxa, Kərəm, digərində Mürşüd durur.
4. Niftalı koxanın atası dilənçi kökündə qapısına pənah gətirmiş Mürşüdə arxa, dayaq olur.
5. Əsərdə qoyulan ideya bütövlükdə Mürşüdün simasında əyaniləşdirilir.
A) 2,5 B) 1,5 C) 2,3
D) 1,3 E) 3,4

81. M.F.Axundzadənin “Aldanmış kəvakib” əsərinin məzmununa aid ***yanlış*** fikirləri müəyyən edin.
1. İki müxtəlif obraz tərəfindən “it” adlandırılan surətin işinə özündən yaşca böyük həmkarı etibar etmir.
2. Şah Abbasın boşanma siğələrini Molla Rəsul oxuyur, kəbin kağızlarını isə Xacə Mübarək cırır.
3. Mirzə Möhsün aylıq məvacibləri vaxtında verməmək üçün sənəd imzalamışdı.
4. Yusif şahın Ərk qalasında həbsə saldırdığı obrazların hər biri həbsdən çıxarılıb vəzifəsinə qayıda bilmir.
5. Özünü “sədaqətli nökər” adlandıran obraz doğru yoldan azmış qoşunla döyüşə girməkdən çəkindiyi üçün tədbir tökməyi üstün tutduğunu dilə gətirir.
A) 1, 3 B) 1, 2, 4 C) 2, 3
D) 3, 5 E) 1, 4, 5

82. Mir Cəlalın “Vətən yaraları” əsərinə əsasən obrazlarla bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Anasına cəbhədən öz şəklini yollayır. – Lətif
2. Lətif olmadan bağlamanı açmaq istəyir. – Təhkiyəçi əsgər
3. Qadınlar yığıncaqlarında stol başında olar, həmişə sədrlik etmək istərdi. – Nəsrəddinin anası
4. Cəbhə xatirələrinin dinc həyatda xatırlanmasını istəyir.
5. Təhkiyəçi əsgər onu “yumşaltmağı” boynuna götürür və Nəsrəddin üçün icazə alır. – Nəsrəddinin komandiri.
A) 3, 5 B) 1, 4 C) 3, 4
D) 1, 2 E) 2, 5

**Açıq tipli test tapşırıqları:**

83. Verilmiş əsərlər üçün ortaq cəhətləri müəyyən edin
• “Şeyx Sənan” (H. Cavid)
• “Od gəlini” (C. Cabbarlı)
• “Fəryad” (B. Vahabzadə)
1. Tarixi mövzuda qələmə alınmışdır.
2. Süjet xəttinə malik əsərdir.
3. Təhkiyə əsasında yazılmışdır.
4. Dini-əfsanəvi şəxsiyyətin obrazı yaradılmışdır.
5. Dramatik növə aid əsərdir.

84. C.Məmmədquluzadənin “Anamın kitabı” əsərində surətlər və onları narahat edən əsas məsələ ilə bağlı uyğunluqları müəyyən edin.
1. Səməd Vahid – kitablarının müsadirə edilməsi
2. Mirzə Zeynal – yığıncaqda yad dildə danışılması
3. Zəhrabəyim – oğlanları arasında fikir ayrılığı
4. Gülbahar – qardaşlarının bir-birilə yola getməməsi
5. Teymur bəy – məktəbdə tədrisin yarıtmaz vəziyyəti

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

85. Ə.Cavadın “Səsli qız” poeması ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.

| ***Doğru*** | ***Yanlış*** |
|---|---|
| 1. Sara məğlub şahı zəhərləyib öldürür. | 4. Şahı qarşılamağa keşiş xaç ilə, Şeyx Quranla çıxır. |
| 2. Qalib hökmdar məğlub şahın canının amanda olduğu barədə buyruq verir. | 5. Saranın və Səsli qızın oxuduğu şərqidə ölkəsinin ümumi mənzərəsi canlandırılıb. |
| 3. İntiqam almaq üçün Qalib şahın məclisində oxumaq istəyir. | 6. Məğlub şah xalqını qalib hökmdara tabe olmağa çağırır. |

86. B.Vahabzadənin “İstiqlal” poeması ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Müəllif “Gülüstan” müqaviləsini ifritə, tikanlı məftil adlandırır.
2. “*Dil yoxsa, millət yox, heç varlıq da yox*” fikri səsləndirilir.
3. Silahlanıb meydanlara axışmağın gücsüzün qatildən aldığı intiqam kimi mənalandırılır.
4. Müəllif burada “Şəhidlər” poemasının adını çəkir.
5. Poemada Babəkin, Nəsiminin adı çəkilir.
6. “*Bir təpə bir dağla üz-üzə gəldi*” misrası ilə Dağlıq Qarabağda baş verən hadisələrə işarə edilmişdir.

87. Uyğunluğu müəyyən edin.
1. “Talvar” (Elçin)
2. “Zəhər” (İ.Hüseynov)
3. “Anamın kitabı” (C.Məmmədquluzadə)
a. Sadə əmək adamının ailə münasibətlərindəki səmimilik öz əksini tapıb.
b. Ata vəsiyyətinə qarşı sədaqətsizlik əks olunub.
c. İşi keçməyən heç bir kəsə yaxşılıq etməyən obraz yaradılmışdır.
d. Soykökündən uzaqlaşmağın verdiyi acı nəticələr öz əksini tapıb.
e. Ömrünü hədər yaşamayan insanların ümumiləşdirilmiş obrazı olan şəxs öz əməksevərliyi ilə seçilir.

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və 88-90 saylı tapşırıqları yerinə yetirin.***

**Azərbaycan bayrağına**

Buraxınız, seyr edəyim düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərinə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!
Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?
Xayır, xayır? Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor,
Yulduzlardan hilaldan da yüksəklərdə fırlanıyor.

Kölgəsində ay əyilib bir gözəli qucmada.
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada,
Şu görünüş bir ananın şəfqətinə oxşuyor.
Düşündükcə zövqlərimi, vicdanımı oxşuyor.
Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə böylə söyləmək!
Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yulduz da səkkiz hərfli OD YURDU
Əsarətin gecəsindən fürsət bulmuş quş kimi,
Səhərlərə uçmuşdur
Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,
Yurdumuzu qucmuşdur!
Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!
Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq,
O gün olsun bir göy bayraq Turan üstə açılsın!
Turan üstə açılsın!

*(Cəfər Cabbarlı)*

88. Verilmiş parçaya əsasən cədvəli tamamlayan.

| ***Bədii təsvir və ya ifadə vasitələri*** | ***Nümunə*** |
|---|---|
| 1. | |
| 2. | |
| 3. | |

89. Verilmiş nümunəni Ə.Cavadın “Azərbaycan bayrağına” şeiri ilə müqayisə edərək məzmunla bağlı ortaq ən az iki fikir yazın.
1. ___________________________________________
2. ___________________________________________

90. Verilmiş nümunə ilə B. Vahabzadənin “Şəhidlər” əsərinin forma xüsusiyyətləri əsasında cədvəli tamamlayın.

| “Azərbaycan bayrağına” (C.Cabbarlı) | “Şəhidlər” (B.Vahabzadə) |
|---|---|
| 1.<br>2 | 3.<br>4. |
| 5. | |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BilikTeam1